*Firuzə HÜSEYNOVA*

# YOUTUBE VİDEO PLATFORMUNUN YARANMA VƏ İNKİŞAF TARİXİ

## РЕЗЮМЕ

Статья о создании и развитии одного из гигантов видео сетей-YouTube. В подготовке статьи были использованы оригинальные тексты и источники. Также представлены цитаты создателей этой платформы о недавном прошлом и стремительном развитии видео сайта.

***Ключевые слова:*** YouTube, онлайн-СМИ, видео, социальная сеть, веб-сайт, блог

## SUMMARY

The article is about the foundation and development of one of the social media giants - YouTube video network. In the process of preparing the article, sources written in the orijinal language have been used through internet resources. The main points about the short history and fast progress of video site have been presented by the citations of co-founders' own speeches.

***Keywords:*** YouTube, online media, video, social network, website, blog

Sosial media son illərdə ən güclü fenomenlərdən biri kimi həyatımıza daxil olub. Genişliyi ilə milyardlarla insanı içinə alan, müxtəlif ünsiyyət kanallarının işini asanlaşdıran, hər növ informasiyanın ötürülməsində sürəti və hədəf topluluğunu təmin edən bu anlayış web 2.0-ın xidmətlərini ilbəil daha təkmilləşmiş formada təqdim edir. Sahib olduğu xüsusiyyətlərə, imkanlara və təsirinə görə sosial media kanalları bir-birindən olduqca fərqlənir. Ortaq nöqtələri informasiya ötürmək olan bu sistemlərin hər birinin öz auditoriyası mövcuddur. Həmin auditoriya isə bu kanalların təklif etdiyi imkanlara maraq göstərən insanlardan yaranır. Auditoriyanın böyüklüyü və dinamikliyi sosial media platformlarında yenilik və inkişafa təkan verən əsas qüvvələrdir. Buna ən yaxşı nümunə kimi YouTube video şəbəkəsini qəbul edib araşdıra bilərik.

Ən geniş izləyici kütləsinə sahib mənbələrdən biri kimi, YouTube öz sakinlərinin işgüzarlığı, axtarışları, yenilikləri sayəsində inkişaf edir. Auditoriyasının bu dinamikliyi olmasa, həmin platformun yaradıcıları belə əslində nə cür bir sistem yaratdıqlarından xəbərdar ola bilməzdi. İstifadəçilərin fərqli, yaradıcı, maraqlı və ən əsası da faydalı kontentlər yaratması YouTube-un sürətli inkişafına dəstək verdi.

Nəzərə almaq lazımdır ki, sözügedən şəbəkə fərqli məqsədlərə çatmaq üçün yaradılmışdı. Platformun ərsəyə gəldiyi dövrdə internet üzərindən videoların tapılıb çatdırılması mümkün idi. Lakin bunun üçün az və ya çox

miqdarda məbləğ ödəmək, xüsusi köməkçi proqramlardan yardım almaq lazım gəlirdi. YouTube'un yaradıcıları da bu şəbəkəni hədəfləyərkən əsas məqsəd kimi videoların daha rahat şəkildə paylaşılması və əldə olunmasını təmin etməyi seçdilər.

Youtube video platformu PayPal-ın keçmiş işçiləri olan Chad Hurley, Steve Chen və Jawed Karim tərəfindən yaradıldı. 14 fevral 2005-ci ildə YouTube-un ticarət nişanı, logosu və domeni Hurley tərəfindən qeydiyyatdan keçirildi. (1) Həmin ilin may ayında isə sistemin beta yoxlamaları baş tutdu. Noyabr ayında investisiya şirkəti Sequoia Capital tərəfindən platforma 3.5 milyon dollar dəyərində maliyyə yardımı göstərildi, dekabrda isə YouTube rəsmi olaraq korporasiya adını aldı. YouTube-un ilk ofisi Kaliforniya, San Mateo, Silikon Vadisində, pizza və yapon yeməkləri restoranının üst qatında yerləşirdi. Şəbəkənin mərkəzi tək bir otaqdan ibarət olub, 60 nəfər işçi tərəfindən idarə edilirdi.

2006-cı ildə yenicə yaradılmış platforma Google şirkəti tərəfindən təklif gəldi və YouTube 1.65 milyard dollara satın alındı. Youtube-un bəzi funksiyaları ilə bağlı şikayətlərə, açılmış məhkəmə işlərinə baxmayaraq, gələcəkdə video yaradıcılığının televiziyadan internetə keçmə ehtimalları nəzərə alınmış və Google tərəfindən riskli bir addım atılmışdı. Google, reklam və marketinq sahələrinin bu sərbəst video paylaşma şəbəkəsində daha çox yayılacağına inanaraq, səkkiz illik fəaliyyəti dövründə ən yüksək məbləği YouTube-a ödəməyə razı oldu.

Həmin illərdə bu cür bir platformun yaradılıb varlığını qoruması o qədər də asan məsələ deyildi. YouTube ilə eyni dövrdə yaradılmış ClipShack, Vimeo, Blip.tv kimi video bloqlardan ilki bir müddət sonra fəaliyyətini dayandırdı, digərləri isə YouTube-un təmin etdiyi imkanları istifadəçilərinə verə bilmədi. Beləcə, YouTube öz dövrünün varlığını ən yaxşı şəkildə qoruyub inkişaf etdirmiş nümayəndəsi oldu. Platformun yaradıcılarından olan Hurley qeyd edir ki, həmin dövrdə videoların internetə sərbəst çıxışı yox idi. İnsanlar videoları izləmək üçün onları telefonlarına, kameralarına və kompüterlərinə yükləyirdilər. Videoların paylaşılması üçün rahat vasitələr mövcud deyildi. İnternetdə video yerləşdirmək də hamıya asan başa gəlmirdi. YouTube-u yaradarkən bu kimi problemləri geridə qoymaq əsas məqsəd idi. Başlanğıcda videoları izləmək üçün istifadəçilərdən Google Video proqramını yükləmək tələb olunurdu, sonradan isə bu yorucu iş də aradan qaldırıldı. YouTube, birbaşa web səhifəyə keçməyə imkan yaradan Adobe-un Flash formatına üstünlük verdi. Zamanla bu platform daha böyük ölçülərdə videolar yükləmək imkanını təmin etdi.

YouTube-a ilk video 23 aprel, 2005-ci ildə platformun yaradıcılarından biri olan Jawed Karim tərəfindən yükləndi. "Me at the zoo" adlı bu videoda Karim zooparkda, fillər olan fonda kamera qarşısında 18 saniyəlik bir çıxış edir. (11) Jawed Karim-in bir müsahibəsində qeyd etdiyinə görə, əslində, video paylaşımı saytı yaratmaq onun ideyası olub. Lakin sistemin yaradılması və fəaliyyətə başlaması işlərində digər iki həmkarı əsas yükü çiyinlərinə götürüblər. Karim isə qeyri-rəsmi məsləhətci kimi fəaliyyət göstərməyə qərar

verib və fikrini təhsilinə yönəldib. YouTube-dan gələn qazanc və xeyirləri də qəbul etməyib.

Karim bildirir ki, ictimai video paylaşımı saytı yaratmaq ideyası 2004-cü ildə Janet Jackson-ın "Super Bowl" bədbəxt hadisəsi və dekabr ayında İndoneziyada yaşanan sunamidən sonra daha çox gündəmə gəlməyə başladı. Həmin zaman bu hadisələrlə bağlı kifayət qədər video görüntü olsa da, yükləmə çətinliklərinə görə lazım olan video faktlar internetdə tapılmırdı. Hədəflənən platform, axtarılan informasiyanın audio-vizual şəkildə əldə olunmasını təmin etməli idi.

Başqa bir məlumata əsasən isə 2005-ci ilin yanvarında Chen-in yeni evində yığışan Hurley və Chen, bir neçə video çəkdikdən sonra onları paylaşmağın yolunu tapa bilməyiblər. Videoların ölçüsü elektron poçt üçün böyük olub, internetə yüklənməsi də çox vaxt tələb edib. Ona görə də bu tip problemləri özləri həll etmək qərarına gəliblər. Karim isə ideyanın özünə aid olduğunu qeyd edərkən bu hadisənin ümumiyyətlə baş tutmadığını söyləyib. Lakin sözlərinin davamında ideyanın həyata keçirilməsi prosesində "hər üçünün eyni miqdarda əmək sərf etdiyini" vurğulayıb. Hurley və Chen sözügedən qonaqlığın gerçəkləşdiyini, Karim-in isə orada olmadığını bildiriblər. Chen qeyd edir ki, "Chad və mən kifayət qədər təvazökar insanlarıq və Jawed müəlliflik hüququ ala bilmək üçün hər fürsətə əl atıb." (9, 5) O söyləyir ki, ilkin ideyaya görə Karim də müəlliflik hüququ daşıyır, lakin həmin ideya yalnız iki ay gündəmdə oldu, sonradan saytın siması dəyişdirildi.

2006-cı il oktyabrın 6-da YouTube-a "A message from Chad and Steve" adıyla yüklənən digər bir video diqqət çəkdi. Aşağı keyfiyyətli görüntülərdə şəbəkənin digər iki yaradıcısı-Chad Hurley və Steve Chen istifadəçilərə platformun Google tərəfindən alındığını xəbər verirdi. (2) Həmin video ilə kütləvi bir kommunikasiya vasitəsi kimi şəbəkədən insanlara müraciət edildi, bununla da saytın ictimaiyyəti məlumatlandıra bilməsi imkanları daha çox üzə çıxdı.

Yaradıcılardan Chad Hurley müsahibəsində qeyd edir ki, PayPal-da işlədikləri zamanlar kifayət qədər foto və video yükləmə şəbəkələri mövcud olsa da, onlar ictimai yayıma açıq, asanlıqla paylaşım edilə biləcək bir sayt yaratmaq ideyasına yönəlmişdilər. İnsanların telefon, kompüter və kameralarında saxladıqları videoları rahat şəkildə paylaşa bilməməsinin bir səbəbi də format fərqliliyi olduğunu söyləyir. Bu problemi həll etmək məqsədi ilə Flash proqram təminatı müşahidə edilmiş və istifadə üçün əlverişli olduğuna qərar verilmişdi. Daha sonralar bu proqram təminatı HTML5 ilə əvəz olundu. Hurley, yaradıldığı ilk zamanlar bu platformun yalnızca istifadəyə yararlı olacağını ümid etdiklərini, onunla bağlı böyük planları olmadığını qeyd edir. Gündə bir milyon baxış əldə etməyə başladıqdan sonra prosesin əhəmiyyəti daha aydın görünsə də, şəbəkənin əsas potensialı hələ də dərk edilməmiş olaraq qalırdı.

Həmtəsisçi, digər bir müsahibəsində qarşılarına qoyduqları ən böyük hədəfin bir gündə 30 milyon baxış qazanmaq olduğunu söyləyir. Bu məqsədi uğurla reallaşdırsalar əsaslı bir addım olacağını düşünsələr də, qısa bir müddətdə

həmin rəqəmi geridə qoymaq çox asan bir proses oldu. Video bloqa hər gün milyonlarla video yüklənməsinin ardından internet nəhəngi Google tərəfindən alınmaq YouTube-un gələcək inkişafını təmin etdi. Bu prosesdə gəlirin ən böyük hissəsi Hurley-yə çatdı. Hurley-nin sözlərinə görə, həmtəsisçilərə qalsa platformu müstəqil şəkildə idarə etmək istəyərdilər, lakin böyümə və inkişaf onları fərqli bir addım atmağa vadar etdi. Komandanın mənbə, maliyyə, inkişaf və tələblə ayaqlaşmağa, böhran bazası yaratmağa olan ehtiyacı Google tərəfindən təmin olundu. "Hər şeyi tamamlamaq və idarə etmək illərimizi ala bilərdi; Google-a satılmaq isə bizə işləri dərhal-bir gecədə növbəti səviyyəyə keçirməyə şərait yaratdı." (7) Hurley, YouTube-un yaradılması zamanı bir çox uğursuzluqlarla da üzləşdiklərindən, digər texnologiya və media şirkətlərinin onlarla rəqabətə girdiyindən, internetin gücünü əllərində tutmağa çalışdıqlarından bəhs edir. Belə gərgin bir zamanda cəmi 64 nəfər əməkdaşı olan şəbəkənin Google kimi geniş bir mənbəyə ehtiyac duyduğunu söyləyir. "Nəticə kimi, Google-un dəstəyi olmadan bu gün YouTube mövcud ola bilərdi mi, bilmirəm." (14)

2010-cu ilə qədər YouTube-un CEO-su olaraq qalan Hurley, sonradan şirkətdə yalnız məsləhətçi kimi fəaliyyət göstərməyə başladı. Əvvəldə ancaq bir il Google ilə çalışmağı planlaşdırsa da, ümumilikdə dörd il əməkdaşlığa davam etdi. Özünün dediyinə görə, bu dövrdəki fəaliyyətini ehtiyac duyduqları zamanda Google-un onlara göstərdiyi dəstəyin qarşılığı olaraq dəyərləndirir.

YouTube video platformu ilə bağlı bir sıra maraqlı açıqlamalar da digər təsisçi Steve Chen tərəfindən mediaya söylənmişdir. Chen-in müsahibəsində danışdıqlarına əsasən, YouTube-un ilkin versiyası tanışlıq saytı olaraq qərarlaşdırılıb. Bu məkan, subay insanların özləri ilə bağlı məlumat verdikləri, qarşı tərəfdə axtardıqları xüsusiyyətlərdən bəhs etdikləri bir şəbəkə olacaqmış. Tanışlıq formatı, sayta konkret kontentdə videoların yüklənilməsi məqsədi ilə seçilibmiş. Lakin sevgililər günündə fəaliyyətə başlayan bu sayt günlər keçsə də bircə istifadəçini belə cəlb edə biməyib. Bu səbəbdən də sahibkarlar, platformu tezliklə müxtəlif növdə videolara açıq elan ediblər. Tanışlıq saytı olan HOTorNOT-un video versiyası kimi yaradılması düşünülən platforma bir müddət sonra hər növ kontent yüklənilməyə başlandı. Böyüməkdə olan şəbəkəyə başqa şirkətlər tərəfindən də maraq artmaqda idi. Time Warner, Sequoia Capital, Menlo Park investisiya firmalarından həmtəsisçilərə YouTube-u almaqla bağlı təkliflər gəlirdi.

Chen, ilk zamanlar maliyyələşmənin özləri tərəfindən edildiyi üçün maddi sıxıntılar çəkdiklərini bildirir. O qeyd edir ki, "Əgər o zaman öz biznesimi qurmağa cəhd etməsəydim, gələcəkdə bu fürsəti bir daha yaxalamaya bilərdim". (5) Bu səbəbdən də keçmiş hissədar iki illik fəaliyyət planını qurur: əgər yeni şirkət iki il ərzində qurulmasa ya da bundan öncə öz pulu bitsə, PayPal-a geri dönüb iş tapmağa çalışacaqdı. Lakin iki il olmadan, yalnız 9 ay ərzində ideya gerçəkləşdirildi və şirkət Google tərəfindən alındı. Hurley və Chen-in digər əməkdaşlarla müzakirələrdən sonra gəldikləri qərar daha böyük bir şirkətlə ortaqlıq etmək oldu. Həmin məqsədlə bir dəfə Yahoo, iki dəfə isə

Google ilə görüş təşkil edildi. Yahoo ilə uğurlu danışıqlar aparılsa da, Google hərəkətə keçməkdə daha çevik oldu və onunla milyard dollarlıq razılığa gəlindi. Chen bildirir ki, "PayPal komandasının böyük bir qismi də daxil olmaqla, elektron məktubunu aldığımız hərkəsi qəbul etdik." (4) Onun sözlərinə əsasən, əməkdaşlıqların təxminən 50%-i xarici ölkələrdən təklif olunurdu. Bu da şəbəkənin qloballaşma prosesinə olan uyğunluğundan irəli gəlirdi. İşbirliyinin rəsmiləşdirilməsi ilə bağlı fəaliyyət davam etdiyi müddətdə istifadəçilərə yeni xəbəri verməyi unudan həmkarlar, anlaşmanı qeyd etdikləri zaman yarı-içkili bir halda yuxarıda sözügedən açıqlama videosunu çəkib platforma yükləyiblər.

Müəllif bildirir ki, əvvəldə müstəqil şəkildə işə davam etmək fikrində olsalar da, sonradan əməkdaşlığın şirkəti böyütmək yolunda daha yararlı olacağı qərarına gəldilər. Bu zaman Google mövcud platformla rəqabət aparacaq bir video paylaşım saytı üzərində çalışsa da, o qədər də uğur qazana bilmir, YouTube komandasının isə maliyyə çətinlikləri özünü göstərirdi. Beləcə, qüvvələri birləşdirərək, hər iki tərəfin də xeyrinə olacaq razılaşma gerçəkləşdirildi. Chen, YouTube-un inkişafında Google-un həyata keçirdiyi ilk ən vacib layihələrdən biri kimi müxtəlif dillərə tərcümə və başqa ölkələrdə açılmış mərkəzlərə dəstək olaraq lokalizasiya proseslərindəki köməyini qeyd edir.

Şəbəkənin fərdi olaraq bir milyon baxış əldə edən ilk videosu 2005-ci ildə Nike-ın reklamı oldu. 2005-ci il, əslində, YouTube üçün sınaq ili kimi qəbul edilir. Sonrakı ildə platform qrup fəaliyyətləri, şəxsi hesablar, video cavablar, baxış keçmişi kimi müxtəlif xidmətlər hazırladı. 2006-cı ilin yayında sayta hər gün 65000 video yüklənir, 100 milyonluq baxış əldə edilirdi. Bu cür özəllikləri sayəsində YouTube artıq böyük şirkətlərin rəğbətini qazanır, onların onlayn marketinq mənbəyinə çevrilirdi. Şəbəkənin yaratdığı bu fürsət istifadəçilərin də diqqətindən yayınmadı və onlar da video yayımlarla gəlir əldə etmək qərarına gəldilər. Philip Defranco və Justine Ezarik kimi bu gün də məşhurluğunu qoruyan kontent müəllifləri həmin zamanlar fəaliyyətə başlamışdı.

Professional kameralara sahib olmaq o dövrdə də bahalı olduğundan, hamı əlində olan vasitələrlə işini həll etməyə çalışır, videoların çoxu aşağı keyfiyyətli alınırdı. Buna baxmayaraq, insanlar kontentlərini çəkib paylaşmaqda tərəddüt etmirdi. İlk dövrlərdə çəkiliş üçün Windows-un Video Maker tətbiqindən və iVideo-nun ilkin versiyalarından istifadə edilirdi. YouTube-un, milyonlarla insana müraciəti mümkün etmə özəlliyi öncəki illərdə çoxları tərəfindən təxmin belə edilə bilməzdi. Lakin qısa bir zamanda kütlələrlə ünsiyyət qurmaq, onlara bacarığını, istedadını nümayiş etdirmək daha asan olmuşdu. Istifadəçi fəallığının artdığı 2006-cı ildə, "Time" jurnalı YouTube-u "İlin şəxsi" adına layiq gördü. Bu ilin ən çox baxış əldə etmiş videosu "Evolution of Dance" adlanır.

2007-ci ildə də qeyd edilən video ən çox baxış sayı ilə liderliyini qorumaqda idi. Həmin il YouTube-da bir ilk olaraq videoların alt qismində çıxan reklamlar tətbiq olunmağa başlandı. Google tərəfindən alındıqdan sonra belə kiçik bir şikət kimi qalmağa davam edən YouTube-un böyüməsində həmin ildə doqquz ölkədə fəaliyyətə başlamağının böyük rolu oldu.

Növbəti illərdə istifadəçilərin çoxunun yüklədiyi videolardan geniş izləyici kütləsinə sahib olanlar çıxmağa başladı. Baxışların artması da izləyici artımına səbəb oldu. Qısa müddətdə YouTube-un ən çox izlənilən və müzakirə olunan simalarından birinə çevrilmiş Shane Dawson 2008-ci ildə YouTube platformuna qatıldı. Dövrün sevilən youtuber-larından olan Fred-in ölümü ilə bağlı paylaşdığı video sayəsində diqqətləri çəkməyi bacaran Dawson, tanınan adlardan istifadə edərək daha çox baxış almağın rahat və sadə yolunu nümayiş etdirmiş oldu. Eyni zamanda, əyləncəli xarakteri və kontenti ilə başqalarına öz auditoriyalarına sahib olmağın yollarını da göstərdi. Davamında öz kontenti ilə auditoriyasını qazanmağa cəhd edənlərin sayı artdı. 2008-ci ildə həm də HD videolar meydana çıxdı.

2009-cu ildə isə artıq hər gün bir milyarddan çox izlənmə əldə edilirdi, Channel 4 ilə də ortaqlıq başladılmışdı. Bu dövrdə insanlar saytdan istifadənin müxtəlif formalarını axtarmağa meyilli idi, elə bəzi oyun və vlog kanallarının yaranışı da həmin zamana təsadüf edir. Sonrakı illərdə belə kanalların, fərqli kontentlərin, paralel olaraq baxışların sayı da artdı. Artıq insanlar müəyyən zamanlar video çəkib YouTube-a yükləyərək reklamdan pul qazanırdı.

Hazırda geniş yayılmış olan youtuberlərarası işbirliklərinin də əsası bu dövrdə qoyuldu. Lisa Donovan, Danny Zappin, Scott Katz, Kassem Gharaibeh, Shay Carl, Ben Donovan and Philip DeFranco kimi istifadəçilərin əməkdaşlığından yaranmış "Makers Studios" sonradan başqalarını da bu işə cəlb edib kifayət qədər böyüdü və 2014-cü ildə Disney tərəfindən 675 milyon dollara satın alındı.

2010-cu ildən etibarən YouTube, televiziyanın daha bir funksiyasını tətbiq etməyə başladı. Hindistan Premyer Liqasının kriket oyunu canlı şəkildə yayımlandı. Daha sonralar da platform üzərindən əhəmiyyətli hadisələrin canlı yayımı davam etdi. Beləcə, sayta film və serial yüklənilməsi ehimalı da yaranmış oldu. Buna görə də şəbəkənin verilənlər bazasının genişləndirilməsinə dair tədbirlər görüldü. Şəbəkənin dizaynı tamamilə yeniləndi, fərqli kontentlər çoxaldı. İnsanlar platforma pulsuz istifadə edə biləcəkləri bir sayt yox, pul qazana biləcəkləri bir məkan kimi baxmağa başladılar. Artıq videolara daha çox baxış gətirməyin yeni yolları araşdırılırdı. Digər internet platformlarının sakinləri YouTube-a cəlb olundu, video saytın kontenti kimi auditoriyası da genişləndi. Çoxları şəbəkənin verdiyi bütün imkanlardan maksimum yararlanmağa çalışdı. Təkcə kontentin rəngarəngliyi, auditoriyanın genişliyi deyil, videoların keyfiyyəti də artdı, vaxtları uzadıldı. Film yaradıcılığında istifadə olunan avadanlıqlar, montaj xidmətləri inkişaf etdirilərək YouTube videolarında tətbiq olunmağa başlandı. Sayt həmin il mobil reklamları təqdim etdi.

2011-ci ildə o vaxta qədər ən çox izlənilmiş video "Charlie bit my finger" idi. Lakin bir milyarda yaxın baxışı ilə musiqi dünyasına da məhz YouTube ilə tanıdılan Justin Bieber-ın "Baby" adlı klipi öncəki videonu geridə qoydu.

2012-ci ildə sayta artıq hər bir dəqiqədə 60 saatlıq video yüklənirdi. Oyun yayımçıları sayəsində uzun videoların yüklənilməsi getdikcə yayılırdı. Bu

səbəbdən də həmin il YouTube-un alqoritmi dəyişdirildi. Baxış sayına görə statistikalardan video uzunluğuna görə olan sistemə keçid edildi. İlin sonuna yaxın isə bir milyard baxış əldə edən ilk video meydana çıxdı. Koreyalı sənətçi PSY-ın "Gangnam Style" adlı mahnısının klipi uzun müddət bu rekordu qorumağa müvəffəq oldu.

Növbəti il platformun əyləncəli kontenti daha da çoxaldı. Vine kimi qısa və sürətli videolar çəkməyə imkan verən tətbiqlərin məhsulları YouTube vasitəsilə daha geniş izləyici kütləsinə müraciət edə bildi. Daha sonralar isə zarafat videoları məşhurlaşdı. İnsanları aldatmaq və reaksiyalarını lentə almaqdan ibarət bu videoların həm gerçək, həm də saxta versiyaları yayıldı. Bu videolar əsasında sosial eksperiment videoları yaradıldı. Yenə insanları aldatmaqdan ibarət olan bu videoların digərlərindən əsas fərqi sosial, dini, irqi, cinsi və s. problemləri gündəmə gətirmək, insanların vicdan və ədalət duyğularını müşahidə etmək, onları ictimai rəyə açıq saxlamaq, yeri gəldikdə qınaq obyektinə çevirmək idi. Məşhur kontent yaradıcılığından biri də gündəlik vloglar-istifadəçilərin öz həyatlarını, məşğuliyyətlərini, təcrübələrini çəkib paylaşdıqları videolar oldu. Bunların hər birinin marketinq əhəmiyyətinin dərk edilməsi səbəbindən, hazırda onlar nəinki YouTube-da, hətta digər sosial şəbəkələrdə, mobil tətbiqlərdə də yaradılır.

İstifadəçilər nə qədər maraqlı videolar çəksə də, hər ilin ən çox izlənən videoları məşhurların klipləri olur. Son bir neçə ildir ki milyardlarla baxış əldə edən videolar sürətlə bir-birini əvəz edir. Lakin hazırda (2018, oktyabr) 5.6 milyard baxış sayı ilə platformun ən populyar videosu Luis Fonsi və Daddy Yankee-nin "Despacito" adlı klipidir. Milyarddan çox baxışı olan və daha artığını hədəfləyən rəqibləri üçün bu video hələ ki keçilməz sədd kimidir. Lakin təkrar edilməsi və ya yenilənməsi çox çətin olar deyə düşündüyümüz videolar da vaxtı ilə bu dövrləri keçib. Belə hesab edə bilərik ki, bir neçə ilə yuxarıda qeyd edilən rəqəmi aşmaq da böyük bir problem olmayacaq.

Böyüyən auditoriyası, artan istifadəçi kütləsi, çeşidli kontenti ilə YouTube dayanmadan inkişaf edir və bu prosesə hərkəsin qatılmasına şərait yaradır. Hurley əvvəlki illərin video şəbəkələrini analiz edərək göstərir ki, "O vaxtlar video saytları sadəcə yayım televiziyalarının bir surəti idi. Onlar, insanların əsas səhifələrini proqramlaşdıraraq və bu prosesə şəxsən qatılmalarına icazə verməyərək onlar üçün nəyin maraqlı olduğuna dair idarəedici qərarlar verirdilər. Biz bunu inkişaf etdirərək əyləncə işini demokratikləşdirdik." (7) Kütləviliyinə görə bənzər məqsədləri paylaşan digər sosial şəbəkələrdən YouTube-un əsas fərqi elə yaratma və yenilənmə işlərinə öz sakinlərini də daxil etməsidir. YouTube sadəcə informasiya xidməti göstərən bir sayt deyil. Bu platform istifadəçilərini bir növ işə götürür və əməklərinin qarşılığı olaraq da onlara "maaş" ödəyir. Şəbəkənin bir maraqlı tərəfi də ondadır ki, maaş məsələsini ədalət prinsipinə uyğun həll edir. Belə ki, güclü şəkildə çalışmadan, həm platforma, həm də izləyicilərə əhəmiyyətli nə isə vermədən böyük pullar qazanmaqdan söhbət belə gedə bilməz.

YouTube, yarandığı gündən bəri təhlükəsizlik, qadağan edilmiş kontentlər, müəlliflik hüququ kimi problemlər səbəbi ilə çətinliklər yaşayan bir şəbəkədir. Təklif etdiyi bütün imkanlara baxmayaraq belə mənfi halların yaşanması şəbəkəni hərtərəfli bir platform olmaqdan saxlayır. Bununla belə, nəzərə almaq lazımdır ki, YouTube-un yaradılma səbəbi videoların azad və sərbəst şəkildə ötürülməsi və qəbul edilməsi olduğundan, şəbəkəyə çoxlu məhdudiyyət gətirilməsi istənilməyən halları aradan qaldıra bilsə də, əsas məqsədlə təzadlıq təşkil edəcək. Onu da diqqətdə saxlayaq ki, YouTube yalnız 13 illik bir sosial kommunikasiya kanalıdır. Gələcəkdə görüləcək tədbirlər nəticəsində platformun çatışmazlıqları təmin oluna bilər. Düşünürəm ki, bu prosesdə saytın istifadəçiləri olaraq bizlər də öz təkliflərimizi hazırlayıb təqdim edə bilərik. YouTube-un müştərək idarəsi və inkişafı ilə bağlı deyilənlər də bir daha öz təsdiqini tapmış olar.

## ƏDƏBİYYAT


1. A Brief History of YouTube https://sites.google.com/a/pressatgoogle.com/youtube5year/home/short-story-of-youtube
2. A Massage From Chad and Steve https://www.youtube.com/watch?v=QCVxQ_3Ejkg
3. Ace X "The History of Youtube" https://www.engadget.com/2016/11/10/the-history-of-youtube/
4. Associated Press "Google buys YouTube for $1.65 billion" http://www.nbcnews.com/id/15196982/ns/business-us_business/t/google-buys-youtube-billion/#.W7SxCNczbDd
5. Brent Summers "Funded on Credit Card Debt, Acquired in a Denny's: Steve Chen on YouTube's Founding Story" https://www.startupgrind.com/blog/video-funded-on-credit-card-debt-acquired-in-a-dennys-steve-chen-on-youtubes-founding-story/
6. Caroline Haskins "The most viewed YouTube videos from every year since it started" https://theoutline.com/post/4996/youtube-history-shown-most-viewed-videos-charts-ads-viral
7. Courtney Trenwith "Interview: Youtube co-founder Chad Hurley" http://www.itp.net/600928-interview-youtube-co-founder-chad-hurley?tab=article&page=2
8. Creative Bloq Staff "Chad Hurley and Steve Chen" https://www.creativebloq.com/netmag/chad-hurley-and-steve-chen-11077181
9. John Cloud "The YouTube Gurus" http://content.time.com/time/magazine/article/0,9171,1570795-1,00.html
10. Mark Prigg "YouTube started life as a DATING app: Co-founder reveals site was for singles to upload videos of themselves"

https://www.dailymail.co.uk/sciencetech/article-3493884/YouTube-started-life-dating-app-founder-reveals-site-singles-upload-video-themselves.html

11. Me at the zoo https://www.youtube.com/watch?v=jNQXAC9IVRw
12. Miguel Helft "With YouTube, Student Hits Jackpot Again" https://www.nytimes.com/2006/10/12/technology/12tube.html
13. Paul James "The Evolution of YouTube Part 1: The Early Years (2005-2007) http://digitalmarketingmagazine.co.uk/social-media-marketing/the-evolution-of-youtube-part-1-the-early-years-2005-2007
14. Part 2: Google's Threshold (2008-2011)
15. http://digitalmarketingmagazine.co.uk/social-media-marketing/the-evolution-of-youtube-part-2-google-s-threshold-2008-2011
16. Part 3: The New Wave (2012-2016)
17. http://digitalmarketingmagazine.co.uk/social-media-marketing/the-evolution-of-youtube-part-3-the-new-wave-2012-2016
18. Rex Hammock "YouTube Co-founder Chad Hurley's Advice to Small Business Owners" https://smallbusiness.com/vision/chad-hurley-advice-to-small-business/
19. Sara Kehaulani Goo "Ready for Its Close-Up" http://www.washingtonpost.com/wp-dyn/content/article/2006/10/06/AR2006100600660.html?noredirect=on
20. Scott Kirsner "Why did YouTube win? An interview with co-founder Chad Hurley from 2005" http://www.betaboston.com/news/2015/02/16/why-did-youtube-win-an-interview-with-co-founder-chad-hurley-from-2005/
21. Scott Woolley "Raw and Random" http://members.forbes.com/global/2006/0313/027.html#3b2af61e18fc
22. Todd Wasserman "The revolution wasn't televised: The early days of YouTube" https://mashable.com/2015/02/14/youtube-history/#iinmhdsjdPqG